# Qazaxıstanın Qütb ulduzu - Abay

(başlanğıcı ötən sayımızda)

***Bunun insana bir faydası varmı? – Bir dəfə özünü bazarda ciddi göstərmək üçün, bədəninə, beyninə bu qədər zülm etməyin nə anlamı var? Sənin görünüşünün ətrafdakılarınxoşuna gəlməsi ilə nə qazanırsan? İnsanın ləyaqəti onun paltarı, görkəmi ilə deyil, qəlbi, əməli ilə ölçülür – Tanrı da bunu istəyir. Məgər güzgü qabağında güzgülənməklə adamın ağlı artır? İnsanın ağlı yaxşılıq etdikcə çoxalar. Ulu Tanrı dünyanın düzənini elə qurub ki, burada insan nəsli artıb çoxalsın. Bizim müqəddəs borclarımızdan biri də odur ki, ətrafımızda yaxşı dostlarımızın sayını artıraq. Dostluq dost qazandırar. Bu da, insanın niyyətindən, məqsədindən və qəlbindəki arzudan asılı olan bir işdir; insan gərək ətrafında olanlara yaxşı münasibət göstərsin ki, bunun da əksini qarşısında olandan görsün. Gərək, insan özünü dostundan üstün saymasın, kimsəyə pislik arzulamasın. İnsan ətrafda olanlardan digər əməlləri ilə də fərqlənə bilər. Əvvəla, insan gərək hər bir durumda sınaq günündə özünün insani keyfiyyətlərini saxlaya bilsin, bu insanı nəcibləşdirir.***

Özünü başqalarından üstün göstərməyin də bir neçə növü olur: əvvəla, hər gördüyün pis vərdişdən özünü kənarda tuta bilsən, bu insana yaraşan hərəkətdir.

İkincisi, özünü yalnız özünə dəyər verən kimi, özündən razı kimi göstərmək insanlığın gözəlliyini yox edir.

Üçüncüsü, qarşındakı insanla düşmən olmaq, onu aşağılamaq, əskik görmək – bunlar düşmənçilik yaradar.

Özünü olduğun kimi deyil, başqa birisi kimi göstərmək lap biabırçılıqdır. Bu insanı başqalarından asılı edir; lakin belə layiqsiz hərəkətlər- dən uzaq olan insanlar isə həyatı rahat yaşayır və məqsədləri xeyirxahlıq olur.

İnsan oğlunu və onun nəslini aşağılayan üç xüsusiyyət vardır, insan bu xüsusiyyətləri özünə yaxın qoymamalıdır: nadanlıq, ərincəklik, zalımlıq.

Nadanlıq odur ki, elmin, biliyin yoxdur, bu da olmayınca, heç nəyə nail ola bilməyəcəksən. Elmsizlik insanı heyvandan fərqləndirməz.

Ərincəklik külli-aləmdəki sənətlərin və peşə- lərin düşmənidir. Məsuliyyətsizlik, cəsarətsiz- lik, utanmazlıq, həyasızlıq, gədalıq – hamısı ərincəklikdən başlayır.

Zalımlıq insanın birinci düşmənidir. Bir başqa insana düşmənçilik, mərhəmətsizlik edirsənsə, heyvandan fərqin olmayacaq.

Bütün bu çatışmazlıqların əlacı isə xalqına məhəbbət, insansevərlik və aləmə şəfqət, qeyrət, güclü ruh, ədalət və geniş dünyagörüşüdür.

Öz biliyini və elmini Tanrının yoluna yönəltsən, müqtədir olarsan. Elm adamı kimi qələmini elm öyrənməyə sərf et ki, müqtədir olasan. Çünki ulu Tanrı bu aləmi yaratdı, düzənlədi, hərəkətə gətirdi, hikmətlə kamilləşdirdi və insanı bir yola çıxartdı; sizlərin işi də, bir yaxşı bina tikib, öz əməllərinizlə bu yaradılışda bir harmoniya yaratmaqdır. Sən gördüyün bütün işlərdə xeyirxahlığı düşünməlisən. Elə etməlisən ki, kimsəyə ziyanın dəyməsin, yanında dayanan insan sənə ümidlə baxsın, sən də onun ümidlərini göyərdəsən. Bunlar olmasa, iş alınmaz. Həyat olmaz. Bunlar olmasa, inam da olmaz. Yaradan heç bir şeyi hikmətsiz yaratmadı, heç bir şeyi hikmətsiz tətbiq etmədi. Onun yaratdıqlarının hər birinin öz yeri, anlamı var. Elmli adam bilməlidir ki, onun bu fərzlərini öyrənsin, hər əməlinə yaxşılıq qatsın. İnsanın niyyət etməyi də ulu Tanrının fərzidir, peyğəmbərimiz hədisi-şərifində deyir: “İnnəməl-əməlu bin niyyət” (“Əməllər niyyətlərə görədir”). Buna görə sizin batininiz təmiz olmalıdır, siz zahirinizdən də özünüzü təmiz saxlamalısınız, sizin zahiri ibadətiniz batininizin kölgəsidir. Siz o imanla nurlanıb ətrafınıza



**Öz biliyini və elmini Tanrının yoluna yönəltsən, müqtədir olarsan. Elm adamı kimi qələmini elm öyrənməyə sərf et ki, müqtədir olasan. Çünki ulu Tanrı bu aləmi yaratdı, düzənlədi, hərəkətə gətirdi, hikmətlə kamilləşdirdi və insanı bir yola çıxartdı; sizlərin işi də, bir yaxşı bina tikib, öz əməllərinizlə bu yaradılışda bir harmoniya yaratmaqdır. Sən gördüyün bütün işlərdə xeyirxahlığı düşünməlisən. Elə etməlisən ki, kimsəyə ziyanın dəyməsin, yanında dayanan insan sənə ümidlə baxsın, sən də onun ümidlərini göyərdəsən. Bunlar olmasa, iş alınmaz.**

işıq saça bilərsiniz. Ona görə də, üləmaların imanı iki deyil, bir ibadətlə nur- lanar, aydınlanar; ibadət etməzsə, içərisindən solar, saralar, qaralar, hətta sönər də. Əgər bi- liksiz insanlar ibadətin iç sirrini ihmal edərsə, imanları sönəcəkdir, – deyirlər.

***Mən bir şeydən qorxuram, o, ulu Tanrının bizə buyurduğu ibadətlə bağlıdır. Bir növ adamlar vardır, onlar ibadət etməriksə, biz Yaradanın buyurduğu kamil müsəlmanlar olmarıq, – deyir və özlərini imanın keşçikçiləri adlandırırlar. O keşikçinin nə faydası var ki, nəyisə güdəcək? Güd- məklə, ehtiyatla, məcburiyyətlə ibadət olurmu?***

***Bu ibadətin ən böyüyü namazdır, namazdan öncə təharət, sonra da namaz qılmaq; həmin tə- harət öncəsi bir düşünün, bunu unutmayın, iki ayağınıza məsh çəkməklə, abdəst tam alınmaz. – Özünü mömin sayan, öncə bədənini ifrazatdan təmizləyib, sonra dəstəmaz alır və deyir ki, Yaradana dua edəcəyəm.***

***Namazın adı səlavatdır, namaz – dua etmək deməkdir.***

***Ayağa, boyuna məsh çəkmək yaxalamaq demək deyil, onlar təmizlənmişdir – deməkdir.***

Namaza başlarkən əli qulağa qoymaq, ulu Yaradanı yuxarıda, məkanı bəlli olmasa da, “günah dəryasına batıram, dünya həvəsinə buraxma məni; əlimdən tutub, bu bataqlıqdan çək, məni bu həvəsdən qurtaracaq yolu göstər, yardım et” deməkdir.

Qiyamda dayanıb qollarını bağlamaq – qulun xocanın qarşısında dayanmasıdır. Bu da, Buxara padşahının önündə durmaqdan daha yaxşıdır, Yaradanın gücünə, əzizliyinə, iqrarına işarətdir.

Üzü qibləyə dayanmaq, “ulu Tanrı heç bir yerə, heç kimsəyə möhtac deyildir, ziyarətinin fərzindən savayı üz çevirdiyin yerdə qılınmış namaz duasının qəbul olnması”na işarətdir.

Ondan sonra “Fatihə” surəsini oxuyursunuz, burada bir az sözlər uzun oxunur. Çünki “Fatihə” surəsinin sətirlərində çox anlamlar var.

Rükuyə getmək, boyun əyməkdir.

Səcdə etmək, əvvəl yaradıldığına, ikincisi, torpağa dönəcəyinə, səcdədən başını qaldırmaq isə dirilib, səninlə hesab çəkiləcəyinə işarətdir.

Tahiyyət – namazda son oturma, namazın sonunda verilən salam, dünyanın sonuna işarədir. Tahiyyətlə Yaradana şəhadət etmək, peyğəmbərimizə salavat gətirməklə dua edilir. O dua xəzinəsi ilə bütün müsəlmanları bir araya toplayıb, onlarla salamlaşmaq və rəhmət deməklə bitir.

İndi gəl görüm, bu sözlərdən nə ibrət aldınız?

*1896*

## Otuz doqquzuncu söz

Doğrudur, ata-babalarımızın bir zamanlar- dakı bilikləri, dünyagörüşü, geyimi, səliqəsi, ədəbi, indikilərdən fərqli olub, lakin onların iki gözəl xüsusiyyəti olub ki, həmin xüsusiyyət indikilərdə yoxdur. Yeni adət-ənənələri öyrənincə, bizə əcdadlarımızdan qalan adətləri itirmişik. Həmin adətlərdən ikisini yenidən qaytarıb yaşada bilsək, dünya millətləri arasında yer tuta bilərik. Bu iki ənənə yox olandan sonra, adamlıqdan çıxdıq, şeytana uyduq. Bu səbəbdən də, milli adət-ənənələrimizi itirdik.

O iki ənənə nə idi? – soruşsan, əvvəla, o zamanda Elbaşı, Topbaşı deyilən kişilər var idi. Onlar elin ağsaqqalı kimi mübahisələri həll edər, dava-dalaşı yola verərdi. Rəiyyət də, ac-tox öz güzəranını sürər, yaxşı-yaman öz işi ilə məşğul olardı. Mübahisələri Elbaşı və Topbaşıları necə həll etsə, necə bitirsə, xalq da onların iradəsinə zidd getməz, onları sınamaz və qəbul etdikləri qərarlara şübhə ilə yanaşmazdılar. “Qoyunun aşığını götür səmtinə at”, “Başlı-başına bəy olsan, öz paltarına sığmazsan, ancaq bir yumruq kimi olsan, atəşdə də yanmazsan” – atalar sözü də el içərisində boşlu-boşuna yaranmayıb. İnsanlar öz aralarından seçdikləri başçını, onun gördüyü işləri qorumaq, hörmətə mindirmək, minnətdarlıq etmək üçün qurbanlar kəsdi, dua etdi, ayin keçirdi, lakin o adamı elə böyütdülər ki, çatışmazlıqlarını üzə çıxarmadılar. Ona bir övliya kimi səcdə etdilər. Ona hörmətlə yanaşdılar, onun dediklərini səbrlə dinlədilər, bütün bu münasibətləri görən ağsaqqallar isə öz hədlərini bildilər. Onlar üçün çəkilən cizgidən qırağa çıxmadılar. Təkcə öz əqrabalarının deyil, ətrafda olan hər kəsin təəssübünü çəkdilər, qayğısına qalıb, gərəkli olanda məsləhət verdilər.

*İkinci cəhət isə namusu qorumaqdır.*

***Ad çəkib, süfrə açıb, rəhmətə gedən ağanın ruhunu yad etsən, heç kim sənin ağzını güd- məyəcək. “Özünə ar tutan, yaddan zər tutar”, “Ağanın azarı olsa da, bezarı olmaz”, “Alatau ala olsa, ayazdığı gedər”, “Dörd nəfər bir olsa, təpədəki yerə enər”, “Yol tutan xəzinə tapar, dağ yaran dərəyə düşər”. Bu atalar sözləri ar, abır-həya, ismət, namusun şərtləridir. Bunları bildik. İndiki insanların dostluğu da etibarlı deyil. Qonşunun sənə olan düşmənçiliyi yox- sulluğundan deyil, ruhunun xəstə olması və ya paxıllığı səbəbindəndir.***

**1897**

## Qırxıncı söz

Zinhar, sizdən soruşmaq istədiyim bir söz var:

– Niyə bizim qazaxların içərisində ölən adam yaxşı olur, diri adamı isə “amanı yox, yamanı çox” kimi qəbul edirlər? Niyə qocalar cavanlarla həmrəy olur, lakin öz həmyaşıdları arasında birbirlərini xor görür? Baxmayaraq ki, günü- gündən sıraları seyrəlsə də, bir-birini sevmirlər?

Yad bir ölkədə öz həmyerlisinin sorağını yaxşı eşidəndə, hamısı onu özünə doğma sayır, lakin işdi-şəyat, həmin həmyerli gəlib yenidən öz yurdunda yaşamağa başlasa, bir-iki gündən sonra salam-kəlamı kəsirlər. Niyə belə edirsiniz?

Yad tayfanın bir tanınmış şəxsiyyətini görən- də, onun qabağında “Əlahəzrət!”, – deyib əyilir, öz elində-obasındakı ləyaqətli və müdrik bir kişini isə tanımır və ya tanımaq istəmir..? Yad ölkədə öz aulunu tərif edir, geriyə döndükdən sonra öz aulunu bəyənmir... – Niyə belə olur?

Niyə valideynlər övladları kiçik olanda, onları sevib-əzizləyir, başına pərvanə kimi dolanır, gözlərindən qırağa qoymurlar, lakin böyüdükcə həmin övladlarına qarşı soyuyurlar?

***Qazaxın ailəsində bir toy və ya yas mərəkəsi düşüncə, güclə bir araya yığılan qazaxlar, kən- din ayağında oğurluq, quldurluq hadisəsi olan- da, hadisə baş verən evə çağırılmadan, tamaşa etmək üçün dəstə-dəstə gəlirlər. Niyə?***

***At yarışlarında sənin atın birinci gəlib çıxdıqda, niyə azarkeş qazaxlar hirslənib, qızır? Keçmişdə insanlar onlara yaxşılıq etmiş, onu yolda qoymayan bir kişini ömrünün axırına qədər unutmazdı. Bəs niyə indi bütün yaxşılıqların unudurlar?***

***Bəy oğlu kasıblayanda, oğurluq etməkdən utanmır, lakin digər zəngin bir bəyin qapısında gedib işləməkdən utanır?***

***Nədən iki comərd kişi bir tayfada, yurdda yaşaya bilmir, lakin iki oğru bir-biri ilə birləşib, bir yerdə mehriban yaşayır?***

***Birinə dost deyib, ona at versən, o da verdiyin atı minib sənin düşməninin yanına gedib, o düşmənin də verdiyi dayçanı götürəndən sonra, niyə sənə arxa çevirsin ki?***

**(davamı gələn sayımızda)**

**Azərbaycan türkcəsinə uyğunlaşdıran:**
**Aida EYVAZLI GÖYTÜRK**